# Xocalı soyqırımı qurbanlarının xatirəsi Türkiyədə yad edilib

## İstanbul

**İstanbulun İbn Haldun Universiteti, Azərbaycanın İstanbuldakı Baş konsulluğu və bu ali təhsil müəssisəsinin Heydər Əliyev Avrasiya Çalışmaları Tətbiq və Araşdırma Mərkəzinin (HACE) birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Mərasimdə Azərbaycanın İstanbuldakı Baş konsulu Nərminə Mustafayeva, İbn Haldun Universitetinin rektoru, professor Atilla Arkan, ali təhsil müəssisəsinin professorları və digər qonaqlar iştirak ediblər.**

Öncə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib. Daha sonra Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirilib.



Tədbirdə **İbn Haldun Universitetinin rektoru, professor Atilla Arkan** Xocalı soyqırımının Türkiyədə böyük kədər, ümumxalq hüzn, yaddaşlardan silinməyən faciə kimi qəbul edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu faciə bundan sonra da unudulmayacaq, insanlarımızın qəlbində əbədi olaraq yaşayacaq. Rektor, həmçinin tarix boyu ermənilərin türk millətinə və Azərbaycan torpaqlarında dinc əhaliyə qarşı törətdikləri ardıcıl və düşünülmüş soyqırımı siyasətindən bəhs edərək bu qanlı hadisənin dünya miqyasında tanıdılmasının vacibliyini vurğulayıb.



**Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva** ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, xalqımızın tarixinə qanla yazılan Xocalı faciəsinin dəhşətli nəticələri, soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlər barədə ətraflı məlumat verib. Baş konsul qeyd edib ki, Azərbaycan xalqı iki yüz il ərzində erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb, xalqımız tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Ötən əsrin sonunda baş vermiş Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Tarix boyu ermənilər türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olub. Xocalıda baş vermiş qətliamın təsadüf olmadığını vurğulayan baş konsul bildirib ki, beynəlxalq səviyyədə qəbul edilmiş normativlər deməyə əsas verir ki, Xocalı hadisələri Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktıdır.

Baş konsul vurğulayıb ki, Azərbaycan xalqı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalibiyyət müharibəsi üçün uzun müddət yüksək səviyyədə hazırlıq aparıb, dünyada gedən prosesləri dəyərləndirərək əks-hücum vaxtını düzgün müəyyənləşdirərək düşmənə 44 günlük Vətən müharibəsində qalib gəlib. Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə apardığı bərpa-quruculuğun nəticəsi olaraq insanların öz doğma yurdlarına qayıdışı prosesini uğurla həyata keçirir.

Tədbirdə digər çıxış edənlər Xocalı soyqırımını bəşəriyyət tarixinin insanlıq adına ən utancverici qara ləkələrindən biri kimi dəyərləndiriblər.

Bildirilib ki, XX əsrin ən qanlı qətliamlarından biri kimi tarixə adı yazılan bu hadisə zamanı gözü dönmüş ermənilər işğaldan da irəli gedərək qadın, uşaq və yaşlı demədən yüzlərlə günahsız insanı xüsusi amansızlıqla qətlə yetiriblər.




Çıxış edənlər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsi və bu faciəni törədənlərin cəzalandırılması istiqamətində başladığı yola diqqət çəkib, hazırda bu tarixi missiya ilə bağlı Azərbaycan dövləti, Heydər Əliyev Fondu tərəfindən görülən işlər haqqında danışıblar.

Tədbir çərçivəsində Xocalı soyqırımını əks etdirən fotosərgi təqdim olunub.

## Kütahya

**Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Türkiyənin Kütahya vilayətinin Tunçbilek bələdiyyəsi tərəfindən anım mərasimi keçirilib.**



Mərasimdə Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun konsulu Zaur Allahverdizadə, Tunçbilek bələdiyyəsinin sədri Mustafa Düzgün, ictimaiyyət nümayəndələri, Kütahyanın Tavşanlı rayonu üzrə kaymakamı Hayrettin Baskı və Kütahyada təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Mərasim iştirakçıları Xocalıda törədilən soyqırımı zamanı həyatını itirənləri yad etmək məqsədilə Azərbaycan parkına yürüşdən sonra burada yerləşən "Xocalı Soyqırımı Abidəsi"nin qarşısına əklil qoyaraq faciə qurbanlarının əziz xatirəsini sükutla yad ediblər.

Tədbirdə çıxış edən Tunçbilek bələdiyyəsinin sədri Mustafa Düzgün aradan 33 il keçməsinə baxmayaraq, Xocalıda törədilən soyqırımının əsla unudulmayacağını vurğulayıb. O deyib: "Türk milləti tarix boyu heç bir millətə, canlıya zülm etməmiş, qətlə yetirməmişdir. Lakin buna baxmayaraq, zəif dövründə çoxlu qırğınlara məruz qalmışdır. Bu qırğınları unutmaq bizim üçün mümkün deyil. Çox təəssüflər olsun ki, dünya bu gün də davam edən erməni qətliamına həmişə səssiz qalıb, çünki qətliama məruz qalanlar türklər və müsəlmanlar olub. Bir millət zəfərini xatırlamazsa, ürəyində ağrı hiss edərək varlığını davam etdirə bilmirsə, o millətin və xalqın gələcəyi risk altındadır. Odur ki, biz türk milləti olaraq qəhrəmanlarımızı hörmət və rəhmətlə yad etməklə yanaşı, keçmişin acısını da qəlbimizdə daima yaşadacağıq. 33 il əvvəl bütün dünyanın gözü qarşısında amerikalı, ingilis, rus və erməni jurnalistlərin şahidi olduğu böyük qırğın baş verdi, insanlığa qarşı cinayət törədildi. Biz bunu əsla nə unutmuşuq, nə də unutdurmayacağıq!".

Anım mərasimində çıxış edən konsul Zaur Allahverdizadə1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladlarının dinc vətəndaşlara qarşı törətdiyi soyqırımının tarixindən danışıb, bu faciənin Azərbaycan xalqının yaddaşına qanlı hərflərlə yazıldığını diqqətə çatdırıb. O bildirib ki, erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayı ilə silahsız və köməksiz Xocalı sakinlərinə hücum ediblər. Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.




Sonra Z.Allahverdizadə Türkiyə ilə Azərbaycanın sevinci ilə kədərinin ortaq olduğunu ifadə edib: "Xocalı soyqırımı türk millətinə qarşı törədilib və harada yaşamağımızdan asılı olmayaraq, bu hamımızın dərdidir. Ona görə də övladlarımız tariximizi yaxşı bilməlidirlər və bu bizim ümumi tariximizdir. Acımız da, kədərimiz də, sevincimiz də eynidir, bunu bütün uşaqlarımıza yaxşı öyrətməliyik".

Tədbirdə digər çıxış edənlər Xocalıda vəhşicə qətlə yetirilən hər bir soydaşımızın Azərbaycanla yanaşı, Türkiyə xalqının da qəlbində əbədi yaşayacağını, bu soyqırımı zamanı xüsusi amansızlıqla öldürülən hər bir insanımızın haqqını tələb etməyə davam edəcəklərini bildiriblər. Qeyd ediblər ki, tarix sadəcə baş vermiş, bitmiş və məktəblərdə öyrədilməyə layiq bir şey deyil. Tarix öyrənilməli və ders alınmalı olan bir şeydir və bundan ibrət almasaq, yenə baş verəcək və onun təkrarı bizə şamil ediləcək. Biz hər tarixdə yaşadıqlarımızdan ibrət götürərək gələcəyə doğru yolumuzu cızmalı və irəli baxmalıyıq.

Xatırladaq ki, bu şəhərdəki "Azərbaycan Parkı" və "Xocalı Soyqırımı Abidəsi" Azərbaycan Respublikasının 100-cü ildönümü münasibətilə 2018-ci ildə Kütahyanın Tavşanlı rayonunun Tunçbilek Bələdiyyəsi tərəfindən inşa edilib və rəsmi mərasimlə istifadəyə verilib.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika.- 2025.- 25 fevral (№ 42).- S.11.